# YARDIMLIDA "İLİN ƏN YAXŞI MƏKTƏBİ" YENƏ BİRİNCİ OLDU



Son illər ali məktəblərə qəbulun nəticələrinə görə Yardımlı rayonu fərqlənir. Hər il rayonun ümumtəhsil məktəblərini bitirən yüzlərlə gənc yüksək nəticələr göstərərək tələbə adına layiq görülür.

Yeni dərs ilində məzunlardan 179 nəfər ali məktəblərə daxil olmuşdur. Bu, əvvəlki illə müqayisədə çoxdur. Onlardan 5 nəfər 600-dən, 10 nəfər 500-dən yuxarı bal toplamışdır.

Artıq üçüncü ildir ki, rayon üzrə ən yüksək nəticəni Çayüzü kənd tam orta məktəbinin məzunları qazanır. Məktəbin yetirməsi Elmin Əlizadə 668 balla Qafqaz Universitetinə, Qabaqdibi kənd tam orta məktəbinin məzunu Ruslan Nəhmədli 667 balla Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, şəhər 1 №-li tam orta məktəbin məzunu Murad Qaraşov 633 balla Azərbaycan Dövlət İqtisad Universitetinə, Astanlı kənd tam orta məktəbinin məzunu Müşfiq Mirzəxanlı 630 balla Azərbaycan Diplomatiya Akademiyasına, Separadi kənd tam orta məktəbinin məzunu Azər Ağaxanlı 603 balla Azərbaycan Dövlət Tibb Universitetinə qəbul olunmuşdur.

Şəhər 1 №-li tam orta məktəbin 14 nəfər, Bozayran məktəbinin 10, Kürəkçi kənd tam orta məktəbinin 7 məzunu tələbə adına layiq görülmüşdür. Qabaqdibi, Arus, Astanlı, Göryədi, Alar və Vəlixanlı kənd tam orta məktəblərinin məzunları da qəbul imtahanlarında yüksək nəticələr göstərmişlər.

Tələbələr arasında qızların sayı əvvəlki illə müqayisədə xeyli artmışdır. Yardımlı şəhər 2 №-li məktəbin məzunlarından 4 qız, Hamarkənd məktəbindən 3, Bozayran məktəbindən 3, Bərcan kənd tam orta məktəbindən 2 qız tələbə adını qazanmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, qəbul imtahanlarında Nizami Cəbiyev adına Çayüzü kənd tam orta məktəbi yüksək göstəriciyə nail olmuşdur. Məktəb 2013-2014-cü dərs ilinin yekunlarına görə "İlin ən yaxşı məktəbi" müsabiqəsinin qalibi olmuş və Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə mükafatlandırılmışdır.

Bu qabaqcıl təhsil ocağı uzun illər uyğunlaşdırılmış binada fəaliyyət göstərmişdir. Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmovun təşəbbüsü və Təhsil Nazirliyinin köməyilə 2014-cü ildə məktəb üçün 220 şagird yerlik ikimərtəbəli, yaraşıqlı bir bina tikilib istifadəyə verilmişdir. Təzə məktəb müasir avadanlıq və inventarlarla təchiz edilmişdir. İnformatika kabinetində 16 kompüter qurulmuş, məktəb internet şəbəkəsinə qoşulmuşdur. Məktəbdə hər 12 şagirdə bir kompüter düşür.

1993-cü ildən məktəbə təcrübəli pedaqoq Hacıabış Əhmədov rəhbərlik edir. İxtisasca tarixçi olan Hacıabış müəllim rayonda bacarıqlı təhsil təşkilatçısı, nüfuzlu ziyalı kimi tanınır. O, 32 illik zəngin pedaqoji təcrübəyə malikdir.

Onun rəhbərliyilə burada işgüzar, peşəkar kollektiv formalaşıb. Məktəbdə nümunəvi təhsil mühiti, sağlam mənəvi-psixoloji iqlim yaradılıb. İdarəetmədə demokratikliyə, kollegiallığa xüsusi diqqət yetirilir. Bütün qüvvələr Təhsil Qanununun, Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının icrasına, təlim-tərbiyə işinin düzgün təşkilinə, tədrisin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsinə yönəldilib.



Direktor Hacıabış Əhmədov uğurların qazanılmasında dövlət qayğısının, pedaqoji kollektivin əməyinin, peşəkarlığının mühüm rol oynadığını önə çəkərək deyir:



– Bütün dövrlərdə məktəb xalqa xidmət etmişdir. Ölkəmizdə təhsilə, məktəbə, müəllimə dövlət qayğısı durmadan artır. Məktəb xalqın sabahına, taleyinə cavabdeh olmalıdır. Müəllim elə işləməlidir ki, bir zaman "Filan alim mənim şagirdim olub, filan görkəmli şəxsiyyət bizim məktəbin yetirməsidir" deyə bilsin. Çalışırıq ki, etimada layiq işləyək, məktəbimizin timsalında rayonumuzun təhsili barədə yüksək fikir yaradaq. Kollektiv bu məqsədlə, bu amalla çalışır, uğurlarını ilbəil artırır.

Məktəbin dünəninə və bugününə nəzər salanda direktorun söylədiklərində həqiqət aydın görünür. Məzunlar arasında 10 nəfərdən çox tanınmış alim, dövlət və hakimiyyət orqanlarında, digər sahələrdə çalışanlar vardır. Məzunlar sırasında alimlərdən Vəli Əsmətovun, Ağaşükür Abdullayevin, Mustafa Sadıqovun və başqalarının adlarını iftixarla çəkmək olar.

Bu gün pedaqoji kollektivi əsasən bu təhsil ocağının yetirmələri təşkil edir. Respublikanın əməkdar müəllimi Qəhrəman Qafarov, qabaqcıl müəllimlərdən Bakir Eyvazov, Cavid Əliyev, Ələkbər Quliyev, Səidə Əhmədova, Hicran Babayev müntəzəm olaraq öz üzərində çalışır, şagirdlərə elmin sirlərini həvəslə öyrədirlər.

Səmərəli pedaqoji işin nəticəsində məktəbdə müvəffəqiyyət 100 faizə yüksəlmişdir. Keyfiyyət göstəricisi 67 faiz təşkil edir. Keçən dərs ilində IX sinfi 12 nəfər, XI sinfi isə 18 nəfər bitirmişdir. Məzunlardan 6-sı respublikamızın ali məktəblərinə daxil olmuşdur. Məktəbin məzunu Elmin Əlizadə rayon üzrə ən yüksək nəticə qazanmış, 668 balla Qafqaz Universitetinin dünya iqtisadiyyatı fakültəsinə qəbul olunmuşdur.

Əvvəlki illərdə məzunlardan Elnur Əlizadə 695 balla Azərbaycan Diplomatiya Akademiyasına, Elmir Bəndəliyev 668 balla Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasına qəbul olunaraq təhsillərini uğurla davam etdirirlər.

Məzunlardan bir neçəsi xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil alır. Hikmət Sahratov Türkiyənin Gülhanə Hərbi Tibb Akademiyasında, Mehdi Sadıqov isə İstanbul Tibb Universitetində oxuyur.

Məktəbdə şagirdlərin hərbi vətənpərvərlik, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsinə xüsusi diqqət yetirilir. Aparılan səmərəli işin nəticəsidir ki, Fövqəladə Hallar Nazirliyinin keçirdiyi "Gənc yanğınsöndürənlər və xilasedicilər" müsabiqəsində məktəbin şagirdləri 9 rayon üzrə birincilik qazanmış, fəxri diplom və mükafata layiq görülmüşlər. "Şahin", "Cəsurlar" və "Sərhədçi" hərbi idman oyunlarında məktəbin komandası rayon üzrə I, zona yarışlarında II və III yerə çıxmışdır. Məzunlardan bir neçəsi hərbçi peşəsini seçərək respublikamızın ali hərbi məktəblərində təhsil alır.

Pedaqoji kollektiv valideyn komitəsilə əlbir fəaliyyət göstərir. Valideyn komitəsinin sədri Sahibəli Həsənov valideynlərlə müntəzəm əlaqə saxlayaraq məktəbdaxili problemlərin həllinə lazımi köməklik göstərir.

Hacıabış müəllim söhbət zamanı bildirdi ki, bu gün Azərbaycan təhsilində əsaslı dönüş, yüksəliş baş verir. Yeni dərs ilində Çayüzü məktəbinin kollektivi qarşısında da məsul vəzifələr durur. Əvvəlki illərlə müqayisədə daha fəal, yüksək işgüzarlıqla çalışmaq, zamanının tələblərinə uyğun bilikli, savadlı nəsil yetişdirmək, məktəbi yeni ideya və təcrübə mərkəzinə çevirmək kollektivin başlıca vəzifəsidir, - deyir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**